# Azərbaycan Dili və Ədəbiyyatı Forumunun ikinci günü panel müzakirələrlə davam edib









**Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının dəstəyi ilə keçirilən Azərbaycan Dili və Ədəbiyyatı Forumu sentyabrın 2-də Bakıda panel müzakirələrlə davam edib.**

AZƏRTAC xəbər verir ki, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan forumun ikinci günündə "Teatr və kinonun inkişafında ədəbiyyat faktoru: əsərdən səhnəyə, səhnədən ekrana" və "Uşaq və yeniyetmələr arasında mütaliənin təbliği. Azərbaycan uşaq ədəbiyyatının vəziyyəti" mövzularında panel iclasları keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Milli Kitabxanasının 100 illiklərinə həsr olunmuş kitab sərgisi ilə tanış olublar.

Forumun ikinci gününün ilk panel iclası "Teatr və kinonun inkişafında ədəbiyyat faktoru: əsərdən səhnəyə, səhnədən ekrana" mövzusuna həsr olunub. Moderatoru kinodramaturq İlqar Fəhmi olan panel iclasda Əməkdar incəsənət xadimi Əli Əmirli, yazıçılar Elçin Hüseynbəyli, Varis Yolçuyev, ədəbi tənqidçi Əsəd Cahangir və "Ədəbiyyat" qəzetinin baş redaktoru Azər Turan iştirak ediblər.

Paneldə "Müasir Azərbaycan dramaturgiyası və onun problemləri", "Azərbaycan ədəbiyyatında teatr və kino platforması", "Mütaliə və tamaşaçı mədəniyyətinin formalaşmasında medianın rolu", "Kino sənətində dil və tərcümə problemləri", "Ədəbiyyatın cəmiyyətə çatdırılması metodikası: beynəlxalq təcrübədə bu istiqamətdə tətbiq olunan innovasiyalar" mövzularında məruzələr dinlənilib.

Forum çərçivəsində günün son panel iclası "Uşaq və yeniyetmələr arasında mütaliənin təbliği. Azərbaycan uşaq ədəbiyyatının vəziyyəti" mövzusuna həsr olunub. Moderatoru yazıçı Günel Əsgərova olan panel iclasda Elm və Təhsil Nazirliyinin şöbə müdiri Vəfa Yaqubova, yazıçılar Zahid Xəlil, Raqif Yusifoğlu, Reyhan Yusifqızı, Sevinc Nuruqızı, şair Qəşəm Nəcəfzadə və Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri Elnarə Akimova iştirak ediblər.

Paneldə "Uşaq ədəbiyyatının ideoloji mahiyyəti və müasir problemləri", "Mədəni və ədəbi qaynaqların müəyyənləşməsində uşaq ədəbiyyatı nə dərəcədə rola malikdir?", "Uşaqlarda mütaliə mədəniyyətinin formalaşdırılması üçün hansı maarifçi islahatlara ehtiyac var?", "Uşaq ədəbiyyatına xüsusi dövlət qayğısının mexanizmləri: oxucu - naşir - müəllif qayğısının vəhdəti gözlənilən nəticəni verirmi?", "Təhsildə ana dili və uşaq ədəbiyyatının rolu" mövzularında məruzələr dinlənilib.

Qeyd edək ki, tanınmış dilçi və ədəbiyyatşünas alimlərin, yazıçı və naşirlərin qatıldıqları forumda mədəniyyətimizin yaşadılması, inkişafı və təbliğində Azərbaycan dili və ədəbiyyatının rolu, ana dilinin saflığının qorunub saxlanılması, müasir ədəbi proseslər, ölkəmizdə uşaq ədəbiyyatının ideoloji mahiyyəti və müasir problemləri, milli kitab sənayesinin hazırkı vəziyyəti və bu sahəyə dövlət dəstəyi, uşaq və yeniyetmələr arasında mütaliənin təbliği, teatr və kinonun inkişafında ədəbiyyat faktoru və digər istiqamətlərdə müzakirələr aparılıb.

Mütəxəssislərin forum çərçivəsindəki fikir və təklifləri ümumiləşdirilərək "Azərbaycan mədəniyyəti-2040" Dövlət Proqramında əksini tapacaq. Azərbaycan Dili və Ədəbiyyatı Forumu işini sentyabrın 3-də davam etdirəcək.

Azərbaycan. - 2023.- 3 sentyabr.- S.8